*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu, ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 228-233*
https://doi.org/10.62837/2024.6.228

**MƏMMƏDOVA AYNUR**
**Azəbaycan Universiteti,**
**Bakı Azərbaycan**
**aynur.e.mammadova@au.edu.az**

# KOQNİTİV DİLÇİLYİN BAŞLICA TƏDQİQAT METODLARI

**Xülasə**

Son illərdə koqnitivizmin problemlərinə, xüsusilə dilçilik sərhədlərində kifayət qədər çox tədqiqat işləri həsr edilmişdir. Koqnitiv dilçilik bilik, ağıl, konseptualizasiya, koqnisiya, konseptual sistem, koqnitiv model, koqnitiv baza, kateqorizasiya, verbalizasiya, mədəniyyət konstantları, metafor, metonimiya, konsept, konseptsfera və s. məsələləri öyrənir. Nəticə etibarilə, koqnitiv linqivistika linqivistik təhlilin bir sıra ümumi qəbul olunmuş metodlarından (məsələn, *linqvokoqnitiv, linqvokultural yanaşma* və s.) effektiv şəkildə yararlanır. Bu məqalədə başlıca metod və yanaşmalar təsvir edilir, ümumiləşmələr aparılaraq bir sıra nəticələr əldə olunur.

**Açar sözlər:** *koqnitiv linqivistika, konsept, dil və mədəniyyət, koqnisiya, metod və yanaşmalar.*

**MAMMADOVA AYNUR**

## CORE METHODS OF RESEARCH IN COGNITIVE LINGUISTICS

**Abstract**

In recent years a vast majority of research papers were dedicated to the problems of cognitivism, especially within the borders of linguistics. Cognitive linguistics studies the issues such as intellect, knowledge, conceptualization, cognition, conceptual system, cognitive model, cognitive basis, categorization, verbalization, constants of the culture, metaphor, metonymy, concept, concept sphere, etc. Accordingly, cognitive linguistics effectively benefits from some commonly accepted methods and approaches (e.g., *lingual – cognitive, lingual – cultural,* etc.) of linguistic analysis. This article defines core methods and approaches, performing some generalizations and accomplishing some results.

**Key words:** *cognitive linguistics, concept, language and culture, cognition, methods and approaches*

## ОСНОВНЫЕ МЕТОДЫ ИССЛЕДОВАНИЯ В КОГНИТИВНОЙ ЛИНГВИСТИКИ

**Резюме**

Последные годы очень много исследовательских работ посвещенны проблемам когнитивизма, в особенности границах языкознание. Когнитивная лингивистика изучаеть такие вопросы как разум, знание, концептуализация,

когниция, концептуалная система, когнитивная база, когнитивная система, когнитивный модель, константы культуры, категоризация, вербализация, концепт, метафора, метонимия, концептосфера и.т.д. В следствии, при изучении выше упомянутых вопросов, оно исползует некоторые обшеприятые методы лингивистического анализа (*лингвокогнитив подход, лингвокултурал подход* и.т.д.) в современном когнитивизме, с тем еффективно описивая то, или иное явление. В данной статье описиваються основные методы и подходы, которые исползуется в современной когнитивной лингивистике, проводитсья некоторые обобщения и итоги.

**Ключевые слова:** *когнитивная лингивистика, концепт, язык и культура, когниция, методы и подходы*

**Giriş**

Koqnitiv dilçilik linqivistikanın, eləcə də koqnitivizmin bir sahəsi kimi son bir neçə onillikdə tədqiqatçıların daim maraq mərkəzində olmuşdur. Formal olaraq koqnitiv linqivistika termini 1989-cu ildə Duysburqda elmi konfransda *Beynəlxalq Koqnitiv Dilçilik Assosiasiyasının* yaranamsı ilə elan edilmişdir.

Koqnitiv linqivistikanın açar terminlərinə *ağıl, dərakə, bilik, konseptuallaşma, konseptual sistem, koqnisiya, dünyanın dil mənzərəsi, koqnitiv baza, mental reprezentasiyalar, koqnitiv modlelər, kateqorizasiya, verbalizasiya, mentalitet, mədəni konstantlar, metafor, metonimiya, konsept, dünya mənzərəsi, konseptsfera, milli – mədəni məkan* və s. anlayışlar aiddir. Linqivistik tədqiqat zamanı da bu anlayışların nəzərdə keçirilməsi, konseptual səviyyədə araşdırılması vacib şərtlərdən hesab olunmalıdır. Belə ki, hər bir konseptin anlaşılması, məzmununun açılması koqnitiv dilçiliyin elmlər sırasında rolunu, mahiyyətini, eləcə də məqsəd və vəzifələrini müəyyən etməyə imkan verir.

Koqnitiv elmin bir istiqaməti kimi koqnitiv dilçilik *dildə ünsiyyətin gizli mexanizmlərini* və *insanın intelektual fəaliyyətinin ümumi qanunauyğunluqlarındakı təsəvvürlərin təsvirini* (1, s. 63) müəyyən etməyə imkan verir. Koqnitiv dilçilyin problemlərini əsas iki istiqamətdə qruplaşdırmaq mümkündür ki, buraya *1) təbii dillərdə kateqoriyalaşma xassələri (metafor, metonimiya və s.); 2) sintaksis və semantika arasında sərhəd sahə* aiddir. (1, s. 64) Birinci halda dil və təfəkkürün əlaqəsi ilə müqayisədə söz və qrammatik strukturların məhdudiyyətinə baxmayaraq danışan müvafiq konstruksiyalar işlətməklə dünyanın şərhini, interpretasiyasını həyata keçirir. İkinci halda isə *qrammatik formaların*, eləcə də *söz sırasının* mənaya malik olması ideyası irəli sürülür. Koqnitivizm bivalasitə məna ilə bağlı olduğu üçun bu fikir öz növbəsində xüsusi əhəmiyyət kəsb edir. Mənanın praqmatikası vacib amillərdən hesab oluna bilər.

Dilin tədqiqatına koqnitiv yanaşma *neyrofizioloqlar, psixoloqlar, neyrolinqivistlər* və s. tərəfindən başladılmışdır. Dil və təfəkkürün əlaqəsi daha sonralar psixolonqivistlər (Ç. Osqud, T. Sebeok, T. Qrindberq, C. Kerrol və s.) tərəfindən davam etdirilmişdir.

Koqnitiv dilçilik mental prosesləri araşdırır, nəticə etibarilə gerçəkliyin şüur vasitəsi ilə qavrayışı və mənimsənilməsi baş verir. Koqnitiv dilçiliyin bir elm sahəsi kimi təşəkkül tapması C.Ləkoff (*konseptual metafora nəzəriyyəsi*), R.Lanqaker (*koqnitiv qrammatika*), Rey Cəkendoff (*koseptual semantika*) Kubryakova və s. adı ilə bağlıdır.

E.S.Kubryakova "*Koqnitiv terminlərin qısa lüğəti*" kitabında koqnitiv linqivistikanın dilin mexanizmini öyrəndiyini qeyd edir. Belə ki, sözügedən dil mexanizmi informasiyanın kodlaşdırılması və transformasiyasında mühim rol oynayır. (9, s. 53-55)

Müəllif koqnitiv elmə *disiplinlərarası (fənlərarası*) elm kimi yanaşır və bir çox sahələr üçün çətir termin rolu oynadığını bildirir. (10, s. 7). Koqnitiv antropologiya, sosiologiya və hətta koqnitiv ədəbiyyatşünaslığın mövcud olması qeyd olunaraq bildirilir ki, istənilən humanitar sahəyə koqnitiv yanaşma mövcud ola bildiyini vurğulayır.

Koqnitiv dilçiliyin mərkəzi anlayışını *konsept* təşkil edir. Onun dil, mədəniyyət, şüurla və s. əlaqəsi məsələnin məğzinə varmağa imkan yaradır. *Konsept* insanın şüuruna məxsusdur, dərki fəaliyyətin qlobal vahidini əks etdirir. (11, s.14). *Dil* insan şüurunun, onun konseptsferasının əksidir, təffəkkürün vahidi kimi konseptlərin struktur və məzmun vasitələrindən birini təşkil edir. Dil vasitəsi ilə şüurun konseptual məzmunun böyük hissəsini dərk etmək və exsplisit şəkildə ifadə etmək mümkündür. Dil vahidlərinin mənalarının məcmusu *dilin semantik sistemini* təşkil edir. Konsept *konseptsferanın v*ahididir, məna isə *dilin semantik sahəsinə* aidddir. Konseptsfera millətlərin, xalqların konseptlərinin nizmlamış məcmusu, təfəkkürün məlumat bazasını təşkil edir. *Məna* dil şüurunun elementidir, konsept koqnitiv şüurun məhsuludur. Konsept və məna bərabər şəkildə idraki – koqnitiv təbiətə malik fenomenlər təşkil. (11, s. 14)

**Problemin qoyuluşu və şərhinə dair**

Koqnitiv linqivistika müasir koqnitiv elmlər sırasında əsaslı mövqeyə sahibliyi ilə seçilərək digər tədqiqat sahələrindən əsasən *1) obyekti, 2) metodlarına* görə fərqlənir. Belə ki, *koqnitiv dilçiliyin obyekti* kimi şüurumuzun süzgəcindən keçərək konseptləşən və dərketmə prosesini əks etdirən və şərtləndirən *dil materialları* hesab oluna bilər.

Koqnitiv linqivsistikanın digər koqnitiv elmlərdən fərqi ondan ibarətdir ki, o şüuru dil materialları əsasında tədqiq edir, yəni obyekti, tədqiqat *materiali* digər sahələrdən ayrıdır. Digər spesifik cəhət *metodlarda* önə çıxır. Belə ki, koqnitiv linqivistika koqnitiv prosesləri öyrənir, insanın şüurunda mental reprezentasiyaların növləri haqqında nəticələr çıxarır. (11, s. 9)

Digər diqqətəlayiq bir xüsusiyyət kimi *koqnitiv dilçiliyin tədqiqat metodlarını* vurğulamaq zəruridir. Belə ki, koqnitiv proseslərin tədqiqi zamanı istifadə olunan spesifik linqivistik təhlil metodlarından yararlanaraq bu və ya digər bir şəxsin dərketməsinin müxtəlif növləri barəsində müvafiq nəticə çıxarmaq mümkündür.

*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 6, 2024*
*Səh. 228-233*

Koqnitiv linqivistikanın tədqiqatında mövcud yanaşmalar əsasən iki istiqamətdə *linqvokoqnitiv və linqvokulturoloji* yöndə bəlirlənmişdir. Bu iki yanaşmadan savayı koqnitiv linqivistikanın tədqiqat metodları kimi *psixoloji, psixolinqivistik, neyrolinqivistik, semantik, məntiqi – dərketmə, eləcə də ənənəvi* metod və yanaşmaları qeyd etmək mümkündür. *Linqvokulturoloji yanaşmada* konseptlər mədəniyyətin əsas vahidi hesab olunur. *V.İ.Karasik, V.V.Krasnıx, V.A.Maslova, F.A.Alefirenko* və s. *linqvokulturoloji yanaşmanın* nümayəndələrinə aiddir.

E.Y. Balaşaova koqnitiv linqivistikada mövcud yanaşmaları iki yerə ayırır: *1) linqvokoqnitiv; 2) linqvokulturoloji* (5, s. 6);

*Linqvokoqnitiv yanaşma* və ya metod milli konseptsferanın mədəniyyətdən süura doğru öyrənilməsinin spesifikasını təklif edir. (11) Bu metod *konsepti* mədəniyyətin əsas (baza) vahidi kimi müəyyən edir. Burada *konsept təsviri, anlayış və dəyər* komponentlərinə malik olub sonuncuya (yəni mədəniyyətə) hakim kəsilir. (8). *İ.A.Sternin, V.N.Taliya, Y.S.Kubryakova* və s. *linqvokoqnitiv yanaşmanın* tərəfdaşları kimi çıxış edirlər.

Koqnisiya dərketmə prosesini əks etdirir və ətraf mühitin individuallar tərəfindən dərkini şərtləndirir. Koqnitiv linqivistika da öz növbəsində bundan yararlanaraq mental prosesləri, dərketmənin mental əksini, növ və formalarını araşdıraraq nəticələr çıxarır. *Linqvokoqnitiv təhlilin* obyekti kimi dil çıxış etsə də, *məqsədi və vəzifələri* koqnitiv linqivistikanın müxtəlif cərəyan və məktəblərində fərqli ola bilər.

Linqvokulturoloji yanaşmanın nümayəndələrinə (9, 10, 11, 5, və s.) o tədqiqatçılar aid edilir ki, onlar dünya haqqında biliklərin əsasında "konsept" kimi mental informasiyanın durduğunu qeyd edir və "*sosiumun konseptsferasına keçidi*" təmin edirlər. (5)

Yuxarıda adı çəkilən metod və yanaşmalardan savayı E.Y.Balaşova *psixoloji, psixolinqivistik, neyropsixolinqivistik, semantik, məntiqi – anlayış, mədəni konseptlərin məntiqi təhlili, "anlayış" və "konsept" terminlərinə ənənəvi dilçilik çərçivəsində yanaşma* və s. metodların mövcudluğunu vurğulayır. (5, s.6)

Koqnitiv dilçilikdə *kulturoloji (Y.S.Stepanov), linqvokulturoloji, məntiqi (N.D.Arutyunova), semantik – koqnitiv (E.S.Kubryakova), fəlsəfi-semiotik (A.V.Kravçenko)* metodları və yanaşmaları da qeyd etmək mümkündür. (11, s. 12). Bu yanaşmlar hər biri müəyyən meyarları əldə bayraq tuturaq koqnitiv-linqivist təhlili həyata keçirir.

Məsələn, *Semantik – koqnitiv analiz metodu* linqvokoqnitiv tədqiqat prosesində mənaların məzmunundan konseptlərin məzmununa keçidi şərtləndirərək, xüsusi təsvir mərhələsi – *koqnitiv interpretasiya* zamanı mümkün olur.

Yuxarıda qeyd olunan yanaşmaların hər biri müasir linqivistikada artıq formalaşmış istiqamətlər hesab oluna bilər və hər birinin öz metodiki prinsipləri mövcuddur, elecə də linqivist – koqnitivistlər arasında kifayət qədər tərəfdaşlarının olması ilə səciyyəvidir.

Metod tədqiq olunan materiala *sistematizasiyanı* və onu nəzəri dərkinə *vəhdət şəklində* yanaşmanı ifadə edir. Son zamanlada problemə müxtəlif modellərdən,

məsələn *freym nəzəriyyəsindən, ssenari, prototip, koqnitiv nəzəriyyə* və s. metodlardan yanaşılaraq problemin həllinə çalışılmışdır.

Müasir linqivistik ədəbiyyatda koqnitiv linqivistikanın prioritetlərindən – *freym modeli metodu (Ç.Fillmor) və konseptual metaforanın tədqiqat metodu (C.Ləkoff, M.Conson)* da kifayət qədər geniş istifadə olunmaqdadır.

Koqnitiv dilçilikdə bir-biri ilə mütləq uyğun bir sıra prinsiplərini bölüşən nəzəri yanaşmaları nəzərə alsa onları iki başlıqda birləşdirmək olar: 1) dil anlamın ayrılmaz hissəsidir. 2) dil psixoloji, kommunikativ, funksional və mədəni amillər arasında qarşılıqlı təsiri əks etdirir. 3) dilin strukturu kommunikativ alət kimi onun istifadəsinə əsaslanan funksional meyarları əks etdirir. 4) cəmiyyət üzvləri arasında ünsiyyət vasitəsi kimi dil həmin mədəniyyətin bir çox aspektlərini əks etdirir. (1, s.64) Bu nəzəri yanaşmalardan irəli sürülən meyarlardan irəli gələrək dilin struktur təşəkkülü mümkün olur ki, bu da iki başlıca meyarı şərtləndirir: *1) daxili – danışanın intelekti 2) xarici – eyni dilə sahib insanların ümumi mədəniyyəti.*

**Nəticə**

Yuxarıda şərh olunan bütün nəzəri məsələləri və koqnitiv linqivistikaya müasir yanaşmaları, fərziyə və düşüncələri ümumiləşdirərək belə bir nəticəyə gəlmək olar ki, koqnitiv dilçilikdə istifadə onunan metodlar çoxçeşidli xarakterə malik olaması ilə səciyyəvidir. Gözdən keçirilən ədəbiyyatların əksəriyyətində bizim maraq obyektimizi təşkil edən mövzu ilə bağlı fikirləri cəmləsək əsas iki istiqamət qeyd edə bilərik: 1) *linqvokoqnitiv və 2) linqvokulturoloji*. Bununla belə, mövcud metodlar ümumilikdə bu iki qruplaşmağa tam olaraq sığmır. Fikrimizcə, məqsəd və niyyətdən asılı olaraq yerli-yerində fərqli təqdiqatçıların təklif etdiyi hər hansı bir tədqiqat metodundan istifadə etmək mümkündür. Məsələn, *psixoloji, psixolinqivistik, neyropsixolinqivistik, semantik, məntiqi – anlayış, mədəni konseptlərin məntiqi təhlili, "anlayış" və "konsept", terminlərinə ənənəvi dilçilik çərçivəsində yanaşma, kulturoloji, semantik – koqnitiv, fəlsəfi-semiotik* metodlarının hər biri koqnitiv-linqivistik tədqiqtlarda kifayət qədər əhəmiyyətli mövqeyə malikdir. Müasir linqivistik ədəbiyyatda koqnitiv linqivistikanın prioritetlərindən – *freym modeli metodu, konseptual metaforanın tədqiqat metodu, ssenari, prototip nəzəriyyələri və s.* təhlil və tədqiq metaodlarından kifayət qədər geniş istifadə olunduğu nəticəsinə gələ bilərik.

Mövzunun daha sonrakı və detallı tədqiqi potensialını nəzərə alaraq bu metodların incəliklərinə varılması şəraitində daha maraqlı nəticələr almaq mümkünlüyünü tam vurğulamaq yerinə düşərdi. Nəzərə alsaq ki, koqnitiv dilçiliyin təqdiqat sahəsi həddindən artıq çoxşaxəli və dərin bir sfera təşkil edir, bu ideya tam əsaslı şəkildə özünü doğrulda bilər.

## Ədəbiyyat

1. A.Y.Məmmədov Dilçiliyin müasir problemləri (magistratura pilləsi üçün dərs vəsaiti), Bakı, 2006, "ADU NƏŞRİYYATI", 84 s.
2. W.Croft and D.Allan Cruse *Cognitive Linguistics*: Cambridge. Cambdidge University Press, 2007, 356 p.
3. Dirk Geeraerts (editor), *Cognitive Linguistics* Mouton de Gruyter / Basic Readings (A rough guide to Cognitive Linguistics), 2006, 485 p., pp.1-28
4. Vyvien Evans and Melanie Green. 2006. *Cognitive Linguistics. An Introduction*. Edinborough. Edinborough University Press
5. Е.У. Балашова «Концепты любов и ненависть в русском американском языках», Автореф. дис. канд. филол наук., Саратов, 2004.
6. Е.Г.Беляевская «Методы анализа лексической семантики в когнитивной лингивистике»
7. В.А.Маслова «Введение в когнитивную лингивистику», Учебное пособие, Флинта – наука, 2011, 1482 с.
8. В.И.Карасик «Языковой круг: личность, концепты, дискурс», Москва, 2004
9. Кубрякова Е.С. Краткий словарь когнитивных терминов / Е.С. Кубрякова, В.З. Демьянов. Лузина Л.Г., Панкрац Ю.Г.– МГУ, Москва, 1996. 245 с.
10. Кубрякова Е.С. «Об установках когнитивной науки и актуальных проблемах когнитивной лингивистики», М.: 2004, №1, стр. 6-17
11. З.Попова, И.Стернин «Когнитивная Лингивистика», Учебная издание, Москва, АСТ: «Восток – Запад», 2007, 314 с.

**Redaksiyaya daxil olma tarixi: 03.06.2024**
**Çapa qəbul olunma tarixi: 28.06.2024**
**Rəyçi: filologiya üzrə fəlsəfə doktoru Ləman Qasımlı tərəfindən çapa tövsiyə olunmuşdur**